**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# 60-80-Cİ İLLƏR AZƏRBAYCAN POEZİYASINDA NAZİM HİKMƏT ƏNƏNƏSİ

| | |
|---|---|
| İxtisas: | 5716.01 – Azərbaycan ədəbiyyatı |
| Elm sahəsi: | Filologiya |
| İddiaçı: | **Aqil Zabil oğlu İslamlı** |

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2023**

Dissertasiya işi Sumqayıt Dövlət Universitetinin Azərbaycan və xarici ölkələr ədəbiyytı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Məhərrəm Paşa oğlu Qasımlı** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Bədirxan Balaca oğlu Əhmədov** |
| | filologiya elmləri doktoru, professor<br>**Rafiq Yusif oğlu Əliyev** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Pərvin Ələmdar qızı Nurəliyeva** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | akademik, filologiya elmləri doktoru, professor<br>**İsa Əkbər oğlu Həbibbəyli** |
| Dissertasiya şurasının elmi katibi: | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**İsimxan Məhəmməd oğlu Osmanlı** |
| Elmi seminarın sədri: | filologiya elmləri doktoru, dosent<br>**Əlizadə Bayram oğlu Əsgərli** |

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Keçən əsrin 60-80-ci illər poeziyası Azərbaycan ədəbiyyatı tarixində xüsusi bir mərhələ olmaqla bərabər, ümumiyyətlə, şeirin, şeir poetikasının öyrənilməsi baxımından son dərəcə əhəmiyyətlidir. Bu illərdə Azərbaycan ədəbi prosesində nəsillərin bir-biri ilə daxili yaradıcılıq əlaqələri, poetika, üslub axtarışlarının bir-birini ənənə və yenilik baxımından əvəzləməsi Azərbaycan poeziyasını zənginləşdirən ədəbi hadisələrdəndir. Poetik-üslubi axtarışlardan bəhs edən tədqiqatlarda 60-cı illər mərhələsi ən müxtəlif baxış bucaqlarından öyrənilir; burada çox sayda dəlil və arqumentlər sadalanır, inkişafın xüsusi mərhələsini doğuran səbəblər izah və şərh edilir; ancaq hiss edilir ki, ümumi mənada, bu səbəb və şərhləri cəm halında ortaq məxrəcə gətirən kontekst çatışmır. Fikrimizcə, belə bir ümumi kontekst türk poeziyası, xüsusi halda Nazim Hikmət ənənələridir. Bu ənənənin 1960-80-ci illər poeziyasında, onun inkişaf meyillərinin və fərdi poetik üslubların formalaşmasında həlledici rolu olmuşdur. Əli Kərimin ədəbi nəslindən olan şairlərin bir çoxu (Fikrət Qoca, Nəriman Həsənzadə, Vilayət Rüstəmzadə və b.) bu və ya digər şəkildə o zaman Moskvada yaşayan böyük türk şairi Nazim Hikmətin şeirlərinin cazibəsi altında idi. Onların yazdıqları bədii mətnlərdə artıq sıx-sıx rastlanan yeni söz və ifadələr, eyni zamanda poetik mətləbi ifadə etmək qüdrəti bir tərəfdən rus və dünya poeziyasının təsiri, digər tərəfdən isə Nazim Hikmətin yaratdığı yeni şeir ənənələri ilə sıx şəkildə bağlı idi. Nazim Hikmət şeirinin təbiəti, onu digər poetikalardan kəskin şəkildə fərqləndirən cəhət ümumiləşdirici və fərqləndirici xarakterə malik olmasında idi, yəni intonasiya və ritm quruluşu etibarı ilə tam yeni olan bu mətnlər həm də onun özünə qədərki poetik ənənələrin sıxılmış, xülasə edilmiş və yeni keyfiyyətlər qazanmış forması idi. Nazim Hikmətin intonasiyası ilk baxışdan "məkan genişliyi" təsəvvürünü yaradır, türk və dünya poeziyasının ən orijinal nəfəsləri bu məkanda birləşib-qovuşur, bütün poetik janr və formaların daxilindəki fəlsəfəni özünə hopdururdu. Məhz bu

səbəbdən onun təsirindən yaxa qurtarmaq çox çətin idi, çünki o bütün poetik atmosferi bürümüş, onu fəth etmişdi. Bu baxımdan Azərbaycan poeziyasında Nazim Hikmət ənənələri mövzusunun aktuallığı ümumiləşdirici səciyyə daşıyır – hər bir yeni mərhələ öz yenilik və orijinallığını ənənə konteksti daxilində əyaniləşdirir. Bu dövrdə Azərbaycan poeziyası ən müxtəlif qaynaqlardan qidalansa da, əsas mənbə türk poeziyası və Nazim Hikmət ənənələri idi.

Nazim Hikmət ədəbi irsinin Azərbaycan ədəbiyyatşünaslığında öyrənilməsi işinə hələ müəllifin öz sağlığında başlanmış və bu proses indi də davam etməkdədir. Bu sahədə Tofiq Məlikli, Azər Abdulla, Arif Abdullazadə, Anar, Jalə Əliyeva, Aqşin Babayev, Rəşid Quliyev və başqaları bir sıra məqalələr və tədqiqat işləri aparmışlar. Türkiyədə müəyyən qadağa və yasaqlara baxmayaraq F.Hikmət, R.Mutluay, F.Çalık, A.Kabaklı və başqa alimlər öz tədqiqatlarında az da olsa Nazim Hikmət yaradıcılığından və ədəbi şəxsiyyətindən bəhs etmişlər. Lakin Azərbaycan poeziyasında Nazim Hikmət ənənəsi ayrıca hər hansı bir tədqiqat əsərinin mövzusu olmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini 1960-1980-ci illər Azərbaycan poeziyası təşkil edir. Bu kontekstdə Nazim Hikmət poeziyası da araşdırmanın əsas obyektlərindən biridir. Sözügedən mərhələnin ədəbi-tarixi mənzərəsini, eləcə də N.Hikmətin yaradıcılıq yolunu araşdıran uyğun tədqiqatlar da bu qəbildəndir. Təqdiqatın predmetini isə dissertasiya boyu araşdırılan məsələ – keçən əsrin 60-80-ci illər poeziyasında Nazim Hikmət ənənələri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Araşdırmanın əsas məqsədi 1960-1980-ci illər Azərbaycan poeziyasının poetik sistemində (obraz, metafor, dil, üslub, kompozisiya və sair) mühüm yer alan Nazim Hikmət ənənələrinin öyrənilməsidir. Bu məqsədlə biz müvafiq dövr üçün səciyyəvi olan mətnlərarası əlaqələri Nazim Hikmət və 1960-80-ci illər poeziyasının axtarışları müstəvisində öyrənirik. Tədqiqat işində qarşıya qoyulan əsas vəzifələri aşağıdakı kimi ümumiləşdirmək olar:

-60-80-ci illər Azərbaycan poeziyasının əsas inkişaf təmayüllərini araşdırmaq;

-Nazim Hikmətin Azərbaycan ədəbi prosesinə gəlişi və bu ədəbi-tarixi prosesə təsir göstərməsi;

-Nazim Hikmətin Azərbaycan sərbəst şeirinin yaranması və formalaşması prosesində iştirakı;

-60-80-ci illər Azərbaycan poeziyasında Nazim Hikmət faktorunun yeni bir mərhələ təşkil etməsi;

-Azərbaycan modernist şeirinin qaynaqları və yeni üslub təmayüllərinin formalaşmasında Nazim Hikmətin rolu;

-Azərbaycan poeziyasının yeni düşüncə konsepsiyasında Nazim Hikmət ənənələrinin nəsildən-nəslə formalaşması;

-Nazim Hikmətə həsr edilən poetik mətnlərdə Nazim Hikmət obrazı;

-Güney Azərbaycan poeziyasında Nazim Hikmət ənənələri; və s.

**Tədqiqatın metodları.** Dissertasiya işi tarixi-filoloji metod əsasında işlənmiş, eyni zamanda, qarşılaşdırma, sistemləşdirmə üsullarından, ədəbi-nəzəri kriteriyalardan da istifadə olunmuşdur. Tədqiqat işində poetik mətnləri aydınlaşdırmaq, onları izah etmək üçün müqayisəli təhlil prinsipinə də istinad olmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiyada Azərbaycan poeziyasının müəyyən bir mərhələsində Nazim Hikmət ənənələri problemini tədqiq etmək və mövzunun tam şəkildə əhatə olunması üçün aşağıdakı müddəaların müdafiəsi nəzərdə tutulmuşdur:

-Azərbaycan poeziyasında Nazim Hikmət ənənələrinin formalaşması yollarını tarixi-xronoloji istiqamətdə izləmək;

-Azərbaycan poeziyasının əsas inkişaf istiqamətlərində Nazim Hikmət faktorunu əsaslandırmaq;

-Nazim Hikmətin Azərbaycan ədəbi prosesində iştirakının poeziyaya təsir imkanlarını araşdırmaq;

-Azərbaycan şeirində fərdi üslub təzahürlərinin formalaşmasında Nazim Hikmət yaradıcılığının rolunun müəyyənləşdirilməsi;

-Azərbaycan poeziyasında yeni insan və yeni düşüncə konsepsiyasının formalaşmasında Nazim Hikmət ənənəsinin davam etdirilməsi;

-Yeni şeir texnikasının formalaşmasında və dil-üslub poetikasının təşkilində Nazim Hikmət ənənələrinin davam etdirilməsi.

**Tədqiqatın elmi yeniliyi**. 1960-1980-ci illər Azərbaycan poeziyasının elmi yeniliyini fərqli aspektlər təşkil edir. Bu cəhətləri aşağıdakı kimi formulə etmək olar:

1. Araşdırmada məsələnin texniki cəhəti deyil, mətn yaradıcılığı tədqiq edilir. Yəni, "bu şeirdə, bu nümunədə Nazim Hikmətin təsiri var, bunda isə yoxdur" məsələsini tamamilə bir kənara qoyaraq yeniliklərin həm paralel, həm də daxili, yəni iç-içə gedişatı izlənilmişdir.

2. Keçən əsrin 60-cı illərində poeziyada modernizmin gəlişi və güclənməsi Nazim Hikmət ənənəsi kontekstində xarakterizə edilir.

3. İlk dəfə olaraq məlum kontekst və dövrü əhatə edən poetik axtarışlara geniş baxış ifadə edilir, 80-ci illər Güney Azərbaycan poeziyasının nümunələri araşdırılır.

4. Ritm və intonasiya problemi əhatəli şəkildə qoyulur, şairin yaradıcılığını müəyyənləşdirən, onu digər mətn və nümunələrdən əsaslı şəkildə fərqləndirən şeirin ritmi və məxsusi intonasiya məsələlərinə aydınlıq gətirilir.

5. Bədii mətnin təşkilinin iki prinsipi vəzn və ritm poetik mətnin strukturyaradıcı komponentlərinin öyrənilməsi də işin yeniliklərindəndir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, 1960-1980-ci illər Azərbaycan poeziyasında Nazim Hikmət ənənəsi xüsusi bir mərhələ kimi öyrənilir. Digər tərəfdən bu araşdırmadan əldə olunan bəzi müddəalar, elmi qənaətlər gələcək tədqiqatlar üçün müəyyən mənbə ola bilər.

**Tədqiqatın aprobasiyası**. Dissertasiya Sumqayıt Dövlət Universitetinin Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasında hazırlanıb. Tədqiqatın əsas müddəaları müxtəlif

elmi nəşrlərdə, habelə konfrans və elmi seminarlarda öz əksini tapmışdır.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır.

Tədqiqat işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

**Dissertasiyanın strukturu**. Tədqiqat işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi 239584 şərti işarədən ibarətdir. "Giriş" 11712, I fəsil 73414 (I paraqraf 37 977, II paraqraf 35 431), II fəsil 74 222 (I paraqraf 36 040, II paraqraf 42 911), III fəsil 71330, (I paraqraf 30 432, II paraqraf 23 407, III paraqraf 27 052), "Nəticə" 8 906 şərti işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın Giriş hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, dissertasiyanın nəzəri və praktik əhəmiyyəti, elmi yeniliyi kimi məsələləri, eləcə də müdafiəyə çıxarılan əsas müddəalar müəyyən olunmuşdur.

**"Azərbaycan poeziyasının əsas inkişaf təmayülləri"** adlı birinci fəsil iki paraqrafdan ibarətdir. **"Azərbaycan şeirində Nazim Hikmət ənənəsinin formalaşması"** adlı I paraqrafda Azərbaycan poeziyasının ötən əsrin 20-ci illərindən başlayaraq keçdiyi poetik inkişaf yolunda Nazim Hikmət faktoru araşdırılır. Qeyd olunur ki, yeni poetik düşüncənin başlanğıcı həmişə çətin olur. Yeni əsrin 20-30-cu illərində Əli Nazim, İsmayıl Hikmət, Mikayıl Rəfili, Nazim Hikmət, Səməd Vurğun, Rəsul Rza, Osman Sarıvəlli, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Əbdülbağı Fövzi, Əhməd Cəmil və başqa şairlərin hər birinin yaradıcılığı novator olmaqla, həm də yeni ənənə formalaşdırmağa çalışırdılar. Nəzəriyyəçi alim Qorxmaz Quliyev ənənə ilə novatorluğu bir-

birindən ayırmır: *"Ədəbi prosesdə ənənəni və novatorluğu bir-birindən ayırmaq, ayrı-ayrılıqda izah və şərh etmək qeyri mümkündür; onlar ədəbi-bədii hadisələri dialektik vəhdətdə izah edirlər.*[1]

Bu mənada Nazim Hikmət yaradıcılığının yeni ənənənin formalaşmasında mühüm rolu vardır. Gənc Nazimin şeirləri 20-ci illərdən başlayaraq Azərbaycan ədəbi mühitinə daxil olmuş və bu proses 60-80-ci illərdə də davam etmişdir. Əli Nazim "Yeni vəzifələr ətrafında" məqaləsində yazırdı ki, gənc şairlər Nazim Hikmət şeirlərinə böyük sayğıdan sərbəst formada şeirlər yazırlar. 20-ci illərdə Azərbaycan poeziyasında yaranan sərbəst şeirlərdən çıxış edərək Ə. Nazim *"sərbəst nəzmin ən yaxşı, mükəmməl nümunələrini bizə Nazim Hikmət verdi"*[2]– qənaətinə gəlirdi. Bu fikir belə bir faktı qeydsiz-şərtsiz təsdiqləyir ki, ənənənin və ədəbi prosesin daxili dinamikasını nəzərə almaqla, Nazim Hikmət Azərbaycan şeirinin dəyişməsində, onun daxilində gedən proseslərin yönləndirilməsində və nəticə etibarı ilə bu mətnlərin, necə deyərlər, dünya standartlarına uyğunlaşmasında böyük və həlledici rol oynamışdır. M.Rəfili də sərbəst şeirin bir cərəyan olaraq intişarını Nazim Hikmətlə başlayırdı: *"Fəqət sərbəst şeirin siması, ilk dəfə olaraq, Nazim Hikmətin yaradıcılığında öz bədii ifadəsini bulmuşdu. Bizcə bu inkar edilməyən bir şeydir (Zatən yuxarıda üç nəfərin ikisi öz əsərlərini Nazim Hikmətin təsiri altında vücuda gətirmişlərdi) "*[3]

Nazim Hikmət Bakıya ikinci gəlişində də elə əvvəlki kimi hərarətlə qarşılanır. "Azərbaycan mədəniyyəti barədə düşüncələr" məqaləsində bu səfəri barədə yazırdı: *"Mənim ilk şeirim vətənimdə, şəhərimdə, Türkiyəmdə, İstanbulumda çap olunub, ancaq ilk şeirlər kitabım Bakıda Azərbaycanda 1928-ci*

---

[1] Quliyev, Q. Ənənə və novatorluq//Quliyev Q. Ədəbi proses. Bakı, Mütərcim, 2020, -s. 148.
[2] Nazim, Ə. Yeni vəzifələr ətrafında./ Ə.Nazim. İnqilab və mədəniyyət. -1928, №8, - s. 31.
[3] Rəfili, M. Sərbəst şeir haqqında ilk söz –Maarif işçisi, -1929, №1. - s. 72

*ildə çıxıb... Mən bunları nə üçün yazıram? Bununla fəxr etdiyim üçün yazıram. Azərbaycan mədəniyyətinə bağlıyam"*[4]

Sərbəst şeirin Azərbaycanda yenidən canlanması da məhz 50-ci illərin ortalarına təsadüf edir. Bu dövrü bütün tədqiqatçılar Azərbaycan sərbəst şeirinin yeni bir mərhələsi kimi dəyərləndirir. Nazim Hikmətin Bakıya gəlməsi sərbəst şeirin mövcud vəziyyətini və onun ən böyük nümayəndəsi Rəzul Rzanın da mövqeyini möhkəmlətdi və poetik imkanlarını artırdı.

Nazim Hikmətin Azərbaycan poeziyası üzərində gördüyü iş, fikrimizcə, yalnız forma ilə məhdudlaşdırılmamalıdır. Bu ənənə forma ilə yanaşı, məzmun üzərində də getmişdir. Nazim Hikmət bütün dünyada tanınırdı və onun poeziyasına hər yerdə istinadlar edilirdi. Onun şeirləri ilə dünyada sərbəst şeir özünün yeni mərhələsini yaşayırdı. Belə bir zamanda Nazim Hikmətin Azərbaycan ədəbi prosesi ilə sıx təmasda olması poetik düşüncənin inkişafına da öz təsirini göstərirdi. Bu təsir müxtəlif səviyyələrdə öz əksini tapırdı:

1. Şeirin texnikasına bir doqma kimi baxmayıb yeni poetexniki imkanların zənginliyini ifadə etmək.
2. Şeirin dil və ifadə elementlərini zənginləşdirmək, ölçü və qafiyə sistemini yeniləmək.
3. Poeziyanın mövzu və maraq dairəsini genişləndirmək, onu dünya poetik fikir arenasına çıxarmaq.
4. Şeirdə çoxsəsliliyi təmin etmək, görümlülüyü artırmaq, poetik detalları bədii-estetik mündəricə ilə bağlamaq.
5. Söz və ifadələrin sərbəst nizamla yerləşdirilməsini, üslubi vurğulaşdırmanın funksionallığını təmin etmək.
6. Poetik mətnin ritm və intonasiyasını dəyişmək və polifonizmi üslub səviyyəsinə gətirmək; və s.

Nazim Hikmət ənənəsinin Azərbaycan poeziyasına təsir imkanlarının xronikası təsdiq edir ki, bu ənənə böyük bir yol keçib gəlmişdir. 20-ci illərdən başlanan bu yol 50-ci illərdə daha da şəkillənmiş və təsir gücünü artırmışdır.

---

[4] Günəşi içənlərin türküsü (Nazim Hikmətin şeirləri, məqalələri, Azərbaycanda onun haqqında yazılan şeirlər, poemalar, məqalələr).-Bakı: - Azərbaycan, -2002, -s.91.

Tədqiqatın 2-ci paraqrafı **“1960-cı illər Azərbaycan şeiri poetik ənənədə yeni mərhələ kimi”** adlanır. Poeziyada forma şeirin danışan dilinə çevrildikcə, yəni formal dəyişikliklərin cərgəsi sıxlaşdıqca ənənəyə qayıdış qaçılmaz hal alır. Poeziyada şairləri ortaq məxrəcə gətirən bir istiqamət daha çox sərbəst şeir adı ilə tanınan, lakin ümumən yeni poetik düşüncəni təmsil edən bir yoldur. Bu dövrdə iki əsas istiqaməti fərqləndirmək lazımdır:

1) Əsas diqqətini formal yeniliklərə, ənənəvi olmayan vasitələrin dövriyyəyə daxil edilməsinə yönəldən şairlərin axtarışları.

2) Təcrübədə ənənəni yeni dövrün bütün dünyada meydana gələn keyfiyyət dəyişikliklərini birləşdirməyə can atan şairlərin axtarışları.

İkinci istiqamətdə forma məsələsi artıq daxili ehtiyac rolunu oynamır, bir nömrəli məsələ kimi gündəlikdən çıxır və bütün poetik vasitələr yeni ədəbi mətnlərin yaranmasına cəlb edilir. Bu kontekstdə araşdırıldıqda, poeziyada bədii tapıntı anlayışından bəhs etmək lazım gəlir. Yəni Azərbaycan şeiri ahəngdarlıq faktından tutmuş, dil, üslub və vəznlərə görə yeni poetik düşüncəni təmsil edirdi. Bu cəhətdən Azərbaycan şeirində yeni bir üslub əlvanlığı, forma ənənəsi, gerçəkliyi poetik idrak səviyyəsində ifadə etmə imkanlarının gətirildiyini görmək mümkündür. Poeziyada Nazim Hikmət faktoru təsdiq etdi ki, poeziya, eləcə də sərbəst şeir nəhayətsiz bədii təsvir imkanlarına, polifonik zənginliyə, poetik ifadəliliyə malikdir və bu imkanlardan maksimum dərəcədə istifadə etmək şairlərin əsas vəzifələrindən biridir.

Azərbaycan poeziyasında mövcud olan fərdi üslubları müqayisəli şəkildə nəzərdən keçirsək, poetik bazanın birdən-birə diametral şəkildə dəyişdiyinin şahidi olarıq. Bu mənzərədə diqqəti ilk cəlb edən cəhət məhz köhnə-yeni şeir oppozisiyasının mövcudluğudur. Dünya ədəbi prosesində nəzərə çarpan, artıq sabit dəyərlərə çevrilən təmayüllər, müəyyən mənada Azərbaycan poeziyasında da hiss edilir, onun ifadə və texniki improvizasiya imkanlarının bazasını dəyişməyə məcbur edirdi. 50-ci illərin sonu, 60-cı illərdə bu formanın oturuşması köklü

üslub dəyişikliklərinə səbəb oldu. O illərdə Rəsul Rzanın yazdığı şeirdə aşağıdakı misralar əhval-ruhiyyənin nə dərəcədə dəyişdiyini əyani şəkildə göstərir:

*...Mən tüpürdüm hüsnə xal yapışdıran*
*Şairlərin yoluna,*
*Və durdum yeni şeirin qarovulunda.*[5]

60-cı illər Azərbaycan poeziyasını yeni mərhələ vahidinə çevirən cəhətləri qruplaşdırsaq, mənzərə aşağıdakı şəkildə nəzərə çarpa bilər:

1. Poeziya ənənə ilə müqayisədə üslub baxımından köklü şəkildə dəyişdi, həm heca, həm də sərbəst formada qələmə alınan nümunələrdə fikrin lakonik ifadəsi ön plana keçdi.

2. İfadə lakonikliyinin oturuşmasında o dövr üçün müasir dünya poeziyası, xüsusən çağdaş türk poeziyasının müstəsna rolu oldu.

3. "Lirik mən" anlayışı (və konstruksiyası) müəyyən mənada dəyişməyə uğradı və bununla bağlı olaraq yeni keyfiyyətlər qazandı. Belə ki, lirik mənin daxili durumunun ifadəsində əlavə detallar, mətləbə birbaşa dəxli olmayan, onu yalnız süsləndirən dekorativ aspektlər kənara atıldı.

Əli Kərim, Nəriman Həsənzadə, Xəlil Rza, Fikrət Qoca, Fikrət Sadıq, Arif Abdullazadə, Məmməd Araz, Hüseyn Arif, Məstan Günər, Musa Yaqub, Məmməd Aslan, Məmməd İsmayıl, Hüseyn Kürdoğlu, Ağa Laçınlı, Vaqif Səmədoğlu, Ramiz Rövşən, Ələkbər Salahzadə, İsa İsmayılzadə və sair ədəbi imzalar Azərbaycan poeziyasının müasir dövrdə inkişafına təkan verməklə yanaşı, onun üslub rəngarəngliyi baxımından özümlü bir hadisə kimi görünməsinə əsaslı şərait yaratdı. Bu dövrdə bədii yaradıcılıq prosesi həm də onunla maraqlı idi ki, həm nəsrdə, həm də poeziyada milli şüurun və varlığın bütün tərəfləri bədii sözün işığında özünün bütün aspektləri ilə nəzərə çarpırdı. Bir çox poetik mətnlərində sözün, onun bətnindəki enerjinin insan ruhuna sirayət edib orda bütün dünyanı bir küll halında

---

[5] Rza, R. Seçilmiş əsərləri: [5 cilddə] / R.Rza. – Bakı: Öndər, – c.1. – 2005.-s.29.

birləşdirməsini konsepsiya halında ifadəsinə can atır. Yəni, “Azərbaycan poeziyası” bir mətn kimi əsrlər boyu keçdiyi təkamül prosesini müəyyən məqamlarda ümumiləşdirməli olur, uzun müddət sürən təkamül prosesinin nəticələri ayrı-ayrı şairlərin yaradıcılığında mükəmməl formada üzə çıxır, belə olduqda ədəbi taleyi həmin məqama təsadüf edən şair qaçılmaz şəkildə sözün dünyaya və insana münasibətindən, insan ömrünün içində qazandığı mənalardan və əsasən mənaları gerçəkliyə “qaynaq edən” metafizik təmasdan danışmalı olur. Onların poeziyasında yeni düşüncə konsepsiyası, təzad fiqurları, eləcə də, Nazim Hikmət yaradıcılığında da tez-tez fikir formulunun daxili ekspessiya potensialından geniş istifadə olunduğunu görürük.

Birinci fəsilə aid əldə edilən əsas müddəalar elmi jurnallarda dərc olunmuş məqalələrdə öz əksini tapmışdır.[6]

Tədqiqatın **“Nazim Hikmət və Azərbaycan poeziyasında yeni poetik düşüncə konsepsiyası”** adlı ikinci fəsli üç paraqrafdan ibarətdir. **“Poetik düşüncənin ifadə imkanlarının müxtəlifliyi və zənginliyi”** adlı 1-ci paraqrafda Azərbaycan poeziyasında yeni düşüncə və insan konsepsiyası araşdırılır. Göstərilir ki, bu illərdə poeziya yalnız mövzu və problematika baxımından dəyişmədi, həm də forma, fərdi üslub, ritm və intonasiya cəhətdən müxtəliflik qazandı. Artıq başda Nazim Hikmət poeziyası olmaqla türk şeirinə söykənmə Azərbaycan ədəbi prosesində yeni bir ənənə halını aldı. Rəsul Rza bu prosesdə başlıca rol oynayırdı. Onun şeirlərində yeni şeir texnologiyasından maksimum dərəcədə istifadə edilirdi. O, həm şeirlərində, həm də məqalələrində yeni düşüncə konsepsiyasını mümkün olduğu qədər müdafiə edir, yeni poetik yolu ənənə şəklinə salmağa çalışırdı. Belə bir fikrində haqlı idi ki: *“Ənənələri hərarətlə müdafiə edən adamlar nədənsə çox zaman*

---

[6] İslamlı, A. Nazim Hikmət və Azərbaycan ədəbiyyatı//Sivilizasiya. Bakı: - 2014, - s.72-76; İslamlı, A. 1960-1980-ci illər Azərbaycan poeziyasında Nazim Hikmət ənənəsi. (Ramiz Rövşənin yaradıcılığı əsasında) Elmi xəbərlər. Sumqayıt: - 2014, – s. 32-35; və s.

*onları yalnız keçmişdə axtarırlar... Nə üçün bizim keçmişdən qat-qat maraqlı və zəngin olan həyatımız yeni ənənələr yarada bilməz və yaratmamalıdır? ”*[7]

Rəsul Rza bu mərhələdə yeni ənənə yaratmaq düşüncəsini yaradıcılığında da eyni qərarlılıqla davam etdirir. “Bir daha qafiyə haqqında”, “Yeni söz”, “Qafiyə haqqında” və s. şeirlərində forma və ənənə haqqında fikirlərini poetik şəkildə ifadə edərək köhnə qafiyə tərəfdarlarını ehkamlara qarşı durmağa dəvət edir:

*Deyəcəksən bu qafiyələr*
*yüz il əvvəl də vardı.*
*Doğrudur, qardaş,*
*lakin*
*diqqət etsən bir az*
*görərsən onda*
*vardı,*
*ancaq deyildi bu məzmunda*[8]

Rəsul Rza yeni ənənəni formalaşdırmaq və yaşatmaq üçün təkcə şeirlərində bu məsələyə toxunmur, həm də məqalələrində və əməli fəaliyyətində buna çalışırdı. “Yaxşılar və müxtəliflər”, “Qayğı sözü, qayğı özü”, “Yolun çətinliyi səni qorxutmasın”, “Ümid və arzular” və s. məqalələrində gənc şairlər Əli Kərim, Tofiq Bayram, Sərdar Əsəd, Fikrət Qoca, Fikrət Sadıq, Vaqif Vəkilov (Səmədoğlu), Ələkbər Salahzadə, İsa İsmayılzadə, Vladimir Qafarov və başqalarının yaradıcılığındakı yeinilikçi meyilləri təqdir edirdi. Əslində bu mübahisələr sənət müzakirələri idi. Estetik kriteriyaların bir-biri ilə uyğun gəlməməsi və yeni bədii-estetik düşüncə tərzinin formalaşması zamanı ona yaradılan bareyerlərdən doğurdu. Nazim Hikmət ənənəsinin 80-ci illər nümayəndəsi Tofiq Abdin “Vaxt vardı...” şeirində bu illəri poetik şəkildə belə təsvir edir:

---

[7] Rza, R. Mənim fikrimcə / R.Rza. -Bakı: -Azərnəşr, -1967. – s. 76.
[8] Rza, R. Seçilmiş əsərləri: [5 cilddə] / R.Rza. – Bakı: Öndər, – c.2. – 2005, –s. 106.

*Vaxt vardı şeirlə doluydu günüm,*
*Şeirdən danışardıq,*
*Şeirlə savaşardıq,*
*Şeirlə barışardıq.*
*Nazim Hikmətin adı gələndə*
*Ayağa durardıq*[9]

Nazim Hikmət, demək olar, bütün gənc qüvvələri təsiri altında saxlayan bir mərkəz idi və poetik sistemlərin formalaşmasında "mərkəzə qaçma" və "mərkəzdən qaçma" meyilləri aydın şəkildə müşahidə edilirdi. Bu prosesdə Nazim Hikmət və Rəsul Rza faktoru ilə yanaşı, ümumən dünya poeziyası və eləcə də, bir çox yenilikçi türk şairlərinin yaradıcılığına istinadlar edilirdi.

Nazim Hikmət ənənəsinin davamçılarından olan Vaqif Səmədoğlu, Ələkbər Salahzadə, Vilayət Rüstəmzadə, İsa İsmayılzadə və b. poetik mətn quruculuğunda eyni üsullardan istifadə edirdilər. V.Səmədoğlu ənənə konteksti daxilində tanıdığı bütün işarələri niyyət və poetik məramına uyğun seçir və onları öz bildiyi kombinasiyalarda işlədir. Onun poeziyasında şeirin məzmun və formasında yeni imkanlar açılır, insanın daxili aləminin poetik ifadəsində yeni qatlar, ənənə konteksti və onun diaxron (dərinə) inkişafı, ədəbi prosesdə köhnə-yeni şeir oppozisiyasından yaranır - bütün bu cəhətlər artıq ədəbi dövriyyədə olan poetik üsulların imkanlarının genişlənməsi ilə müşayiət edilir. Şair "*Ev. /Özgə otağının kiri, /Divarda Stalin, /Bir də köhnə saatın /Veyillənən kəfkiri...",-* ekspozisiyasından sonra əsas mətləbi Nazim Hikmət ənənəsinə uyğun olaraq belə ifadə edir.

*Bakıya baxdım*
*Dönərkən geri.*
*Tamam başqa şəhər,*
*Evlər birtəhər,*

[9] Abdin, T. Sahilsiz dünya (şeirlər və poema) / T.Abdin. Bakı: - Yazıçı, -1985, -s.48.

*Mənə baxır hamı...*
*Köksümə saldım başımı*
*Ayaqlarımın altda*
*“Kilka v masle” –*
*- Köhnə,paslı dəmir qutu,*
*Sol, sağ insanla dolu*[10]

İsa İsmayılzadənin poetik fəlsəfi konsepsiyasındakı yenilikçilik Nazim Hikmət yenilikçiliyi ilə səsləşir. Şair hər hansı bir detalı təsvir edərkən bütün ruhu, mənəvi dünyası ilə onu görümlü edir. “Mən bir termos şüşəsiyəm” şeirinin misralarının azad nizamla bölüşdürülməsi təsvirlərin canlılığına şərait yaratmış və fikri əyani şəkildə qavramağa imkan vermişdir:

*Mən bir termos şüşəsiyəm,*
*çilik-lilik olmuşam,*
*tökülmüşəm içimə.*
*(eh kimin nə vecinə)*
*Birinin gözlərindən,*
*birinin ürəyindən*
*qolaylanıb atılanda,*
*tənhalığın üstünə düşüb sınmışam –*
*necə sındığımı heç kəs görməyib,*
*heç kəs bilməyib*[11]

Fikrət Qoca, Fikrət Sadıq, Arif Abdullazadə, Tofiq Abdin, Vaqif Cəbrayılzadə, Ramiz Rövşən, Çingiz Əlioğlu, Nüsrət Kəsəmənli, Vaqif Bəhmənli və başqa şairlərin söz və söz birləşmələri, sintaqm ayrıcları türk şeir dilinə bir qədər də yaxınlaşır. Ramiz Rövşənin “Göy üzü daş saxlamaz” metaforu onun yaradıcılığının leytmotivini təşkil edir. Nazim Hikmət yaradıcılığına xas olan ballada üslubu onun da şeirlərinin əsasını təşkil edir. Beləliklə, Azərbaycan poeziyasının 60-80-ci illərini

[10] Səmədoğlu, V. Uzaq yaşıl ada / V. Səmədoğlu. – Bakı: Gənclik, – 1999. – s.19.
[11] İsmayılzadə, İ. Gözləyin, dünyaya qayıtmağım var –Bakı: -Qanun, -2006. –s.79.

Nazim Hikmət ənənəsinin formalaşma və möhkəmlənmə dövrü kimi səciyyələndirmək olar. Bir çox şairlərin yaradıcılığında yeni poetik ənənə müxtəlif komponentlər baxımından təzahür edir və Nazim Hikmət ənənəsi özünün yeni bədii-estetik təcəssümünü tapır.

**"Nazim Hikmət və Azərbaycanda modernist şeir texnikası"** adlı 2-ci paraqrafda 60-80-ci illər modern şeir texnikasının formalaşma məsələlərində Nazim Hikmətin rolu araşdırılır. Azərbaycan poeziyasının 1960-1980-ci illərində Nazim Hikmətin poeziyasına maraq təsadüfi səciyyə daşımırdı, əksinə, son dərəcə ciddi olmaqla özünü yeni bədii mətnlərin quruluş prinsipində, dünyaya, gerçəkliyə münasibətini nümayiş etdirirdi. Bu maraq getdikcə sızıntı və nüfuzetmələrdən sistematik formaya döndü, məzmun planında baş verən dəyişikliklər forma planında sərbəst şeirin variasiyalarının yaranmasına gətirib çıxardı. Rəsul Rzanın sərbəsti ilə Vaqif Cəbrayılzadə, yaxud Adil Mirseyidin sərbəst şeirlərinin forması arasında fərq məhz bu hadisənin nəticəsi idi. Rəsul Rza şeirində hiss-həyəcanla rasional başlanğıcın nisbəti o dövr poeziyası üçün xüsusi hadisə sayıla biləcək şəkildədir.

70-80-ci illərdə isə bu prosesin müəyyən mənada əksini müşahidə edirik. Artıq türk poeziyası ilə ardıcıl tanış olan gənc nəslin nümayəndələri, hər şeydən öncə, bu poeziyanın insan qəlbinə dərhal sirayət edən intonasiyasını mənimsəməyə çalışdılar və qismən buna nail oldular. Həmin nəslin nümayəndələrində, xüsusən Vaqif Cəbrayılzadədə, daha sonra isə 80-ci illərin nümayəndələrində (Vaqif Bəhmənli, Adil Mirseyid, Əlisəmid Kür, Rasət, Akif Əhmədgil, Zahid Sarıtorpaq və b.) bu təsirdən qaçmaq məcburiyyəti gerçəkliyə fərqli münasibət tipinin formalaşmasına gətirib çıxardı. Bu illərin poeziyasında ən qabarıq cəhət, yəni formayaradıcı element "qəfil nurlanma" prinsipinə əsaslanır, yəni şair qəfil doğan hissin dərinlik ölçüsünü göstərməyə can atır. Bir-birinə hörülən hisslər bədii mətnin quruluş formasında, şeirin qafiyə sistemində, folklor-dastan poetikasına yaxınlaşma metodunda və bütövlükdə bu komponentlərin seçilməsində mühüm rol oynadı. Bu məqamda

bir ayrıntıya diqqət yetirmək lazımdır: Nazim Hikmət poeziyasının təsiri fərdi planda baş vermirdi, yəni, o, ayrı-ayrı fərdlərə təsirlə məhdudlaşmırdı, daha çox bizim poeziyanın kontekstinə nüfuz edir, ordakı komponentlərin məzmununun dəyişməsinə gətirib çıxarırdı. Bu məqamda iki cəhəti seçib-fərqləndirmək lazımdır:

1. 80-ci illər poeziyasında elə mətnlər var ki, Nazim Hikmət poeziyasında olduğu kimi, epik kontekst kifayət qədər alt qatda olduğundan görünmür. Məsələn, Vaqif Cəbrayılzadənin "Mən zalım adamam, kamança" şeiri kimi. Amma şeirin təlqin etdiyi hisslər ifadə edildikcə mətnin kontekstinə düzülən layları görmək mümkündür.

2. 80-ci illər poeziyasında birbaşa epik mətnlərin yeni poetik təqdimatı geniş yayılır. Dilsuz Mustafayevin "Dədə Qorqud" motivləri üstə yazılan şeirləri buna nümunə ola bilər. Bu halda şeirin leksikasından tutmuş ifadə vasitələrinə qədər bütün poetik arsenalı təzələnir. Belə bir cəhət mənbəyini həm də Nazim Hikmət poeziyasından götürür. Nazim Hikmətdə poetik intonasiya vasitəsi ilə mətndəki epik ovqatı lirik çırpıntılara çevirmək ənənəsi məlumdur.

*Azman dağların əvəzi,*
*Quzoğlu Mansırın ilxısı əvəzi,*
*İtirilmiş torpaqların əvəzi,*
*Keçə bilmədiyim dənizlərin əvəzi,*
*Yata bilmədiyim güzlərin əvəzi...*
*Azğın göyə, ulartım ulduza-aya tərəf...*[12]

Vaqif Səmədoğlu, Ələkbər Salahzadə, İsa İsmayılzadə, Səyavuş Sərxanlı, Sabir Rüstəmxanlı, Vaqif Cəbrayılzadə, Ağamalı Sadiq, Vaqif Bəhmənli kimi şairlər poetik axtarışlarında modern dünya şeiri bucağından yanaşır, sözə, poetik yaşantıya münasibətlərindəki orijinallığa meyil göstərirdilər. Şeirdəki

[12] Mustafayev, D. Ağ atlı oğlanın nağılı / D.Mustafayev. – Bakı: Yazıçı, – 1981. –s.16

assosiativlik, fikrin, poetik təəssüratın ənənəyə haradasa tərs mütənasib olan yollarla ifadə edilməsi və bu ifadə üsulu və texnologiyasının insan şüuruna təsiri, yeni şeirin oxucular tərəfindən qavranılması, onların poetik dünyagörüşü və gerçəklik haqqında bildiklərinə qabarıq şəkildə təsir göstərməsi kimi cəhətlər müzakirə mövzusuna çevrilmiş və nəticədə yeni şeir haqqında analitik fikirlər irəli sürülmüşdü. Ancaq bu poetik nümunələrin əksər hissəsində, xüsusən adlarını çəkdiyimiz şairlərin yaradıcılığında "Vətən" mövzusunun ifadəsi əsaslı şəkildə dəyişmişdi.

O dövr üçün bu, ultramüasir şeir texnikası sayılırdı. Burada önəmli olan başqa bir cəhət də vardı. Hansı dönəmdəsə şeirin yazılış texnikası, ifadə üsulu dəyişdikdə onun daxilində elə bir mexanizm yaranır ki, bununla bütün ənənədəki qabarıq cəhət və xüsusiyyətlər, ümumən poeziyanın hədəfində olan nəsnələr bir məqama kondensasiya edilir.

Ramiz Rövşənin poeziyasında ağrı mühüm yer tutur. Tənqidçi Vaqif Yusifli *"Ramiz Rövşənin poeziyası bütünlüklə ağrı poeziyasıdır. Ancaq bu ağrı anlama faciəsindən, işığın qaranlığa təslim olmamasından doğan ağrıdır"*[13] qənaətində tamamilə haqlıdır. Doğrudan da, R.Rövşənin poeziyasında ağrı obrazı ön plandadır.

Vaqif Bayatlı Odərin poeziyası da bir sıra özünəməxsusluqları ilə seçilir. Onun şeirlərində R.Rövşəndən və V.Səmədoğlu ilə yanaşı, modernist texnikası ilə seçilir. Şairin lirik qəhrəmanı çox çılğın və coşqun daxili temperamentə malik bir insandır. Bu lirik qəhrəman təbiəti etibarilə romantikdir, ancaq bu romantika da reallıq hissindən məhrum deyil. Vaqifin şair xəyalı çox-çox uzaqlara gedir; tarixin ən dərin qatlarına enir, kosmosa qalxır, insan qəlbinin bilməcələrinə də baş vurur, ancaq qətiyyən ayağı yerdən üzülmür. Onun poeziyasında da Həyat-Ölüm, Varlıq-Yoxluq, Məhəbbət-Xəyanət təzadları tez-tez qarşılaşdırılır, ancaq bunlar digər şairlərdən kəskin şəkildə

---

[13] Yusifli, V. Sındır qəfəsi / V.Yusifli. – Bakı: Mütərcim, – 2008. –s.110.

fərqlənir. Məsələn, onun Azadlıq haqqında yazdığı bir şeirin bu misralarına diqqət yetirək:

*Azadlıqçün ağlayan oğlan,*
*Kirpiklərin qanadlarıdır göz yaşlarının,*
*Göz yaşların kirpiklərinlə*
*qanadlandığı andan*
*sən azadsan, sən qanadlısan,*
*qanadlarını açıb bağlamaq öyrən,*
*quşların ağlamağı da, gülməyi də uçmaqdı,*
*quşlardan gülmək, ağlamaq öyrən,*
*öyrən, ölümün ən böyük azadlıq*
*olduğun öyrən.*[14]

Bu şeirdə də azadlıqdan və ölümdən söz açılır, ancaq şeirin ritm və ahəngində bir sərbəstlik var, lirik qəhrəmanın duyğu və düşüncələri nikbinlik çalarları ilə köklənmişdir.

Adil Mirseyidin üslub texnikasında bədii effekt mətndənkənar gerçəkliklə daha çox əlaqəlidir. Onun poetik təfəkkürü fərqli olduğu qədər də orijinal idi, onun gözlənilməz gedişləri mətnin üst qatında bir elə hiss edilmir, onun poetik sistemində ümdə məsələ bütün mətnlə "oynamaq", bütün mətnin içindəki yek mənanı aramsız olaraq parçalamaqdır.

İkinci fəsilə aid əldə olunan əsas müddəalar elmi jurnallarda dərc edilmiş məqalələrdə öz əksini tapmışdır.[15]

Tədqiqatın 3-cü fəsli **"Azərbaycan poeziyasında Nazim Hikmət üslubu"** adlanır. Bu fəslin **"Azərbaycan şeirinin dil və üslubunda yeni poetik ənənə"** adlı 1-ci paraqrafında şeirin poetexnologiya, dil və üslub baxımından yeniləşməsi tədqiq edilir. Qeyd olunur ki, Nazim Hikmətin hələ əvvəlki

---

[14] Cəbrayılzadə, V. Ölənəcən sevmək azdır / V.Cəbrayılzadə. – Bakı: Yazıçı, – 1990.-s.131.

[15] İslamlı, A. Nazim Hikmət poeziyası və 60-80-ci illər Azərbaycan şeirində yeni poetik texnika – modernist təmayüllər. // "Dil və ədəbiyyat". Beynəlxalq elmi-nəzəri jurnal. – Bakı: – 2013, –s.134-136;

onilliklərdən gələn poetik üslubu sözügedən onilliyin mənzərəsində güclü təkanverici qüvvə kəsb edirdi. Artıq belə bir nəzəri ideya öz həllini tapıb ki, konkret dövrün ədəbi prosesi indidən çox keçmişə can atır, keçmişdə təravətini itirməmiş üslub və poetexnologiya komponentlərini əxz edib yenidən diriltməyə cəhdlər göstərir. M.C.Cəfərov dilin təbiətinə və fonetik xüsiyyətlərinə önəm verərək yazırdı: *"Şeirin ahəngdarlığında vəzn və qafiyənin mühüm rolu vardır. Lakin vəzn və qafiyə yenə canlı dilin təbiətinə, onun fonetik xüsusiyyətlərinə əsaslanır, dil materialından yaranır.*[16] Buna görə də zaman-zaman şeirin, poeziyanın dilinin dəyişməsi və yenilənməsi tamamilə təbiidir. Şeirin canlı çıxması üçün onun canlı danışıq dilinə əsaslanması, ekspressiv və emosionallıq qazanması lazımdır. Dilçi alim, akademik Tofiq Hacıyevin fikrincə Ə.Kərimdə *"...novatorluq birbaşa təşbeh sistemindən start götürür, sonra sintaksisi fəth edir və buradan da asanlıqla bütün nitqi ələ alır"*[17]. Bu xüsusiyyət Nazim Hikmət ənənəsini davam etdirənlərin şeirlərində də bu və ya digər şəkildə özünü büruzə verir. Poetik dil sintaksis nitqinin bütün elementlərini əhatə etməyə çalışır və beləliklə poetik sintaksis bədii nitqin hər yerinə yayılır.

Azərbaycan poeziyasında obrazın yaradılmasında dilin poetik imkanları da mühüm əhəmiyyət daşıyır. Dilin poetik imkanları və zənginliyi obraz yaradılmasından yaxından iştirak edir. Sabir Rüstəmxanlının yeni şeirləri ilə yeni poetik ənənə bir qədər də möhkəmlənir. Akademik İsa Həbibbəyli şairin yaradıcılığındakı bu dəyişikliyi doğru təsbit edərək yazır: *"Ənənəvi üslub hüdudunda yeni fikir və bənzətmələrin təqdimi tədricən Sabir Rüstəmxanlının orijinal üslubunun təsdiqi ilə nəticələnmişdir. Fikrin obrazlı və cəsarətli poetik ifadəsi onun*

---

[16] Cəfərov, M.C. Şeirimizin dili və vəzni haqqında //Füzuli düşünür -Bakı: -Elm, -1959. -s. 154.

[17] Hacıyev, T. Əli Kərim poeziyası //Əli Kərim. Seçilmiş əsərləri – Bakı: -Lider, -2004. - s. 10.

*şeirlərinin fərdi simasını müəyyən etmişdir"*[18] Sabir Rüstəmxanlının "Vətən" şeiri Vətənin mənəvi xəritəsinin cızılması və yurdun poetik koloritinin yaradılması baxımından Nazim Hikmət vətən sevdasına çox yaxın idi:

*Bir əlçim buluddu,*
*Bir ömür umuddu,*
*Bir içim sudu,*
*Yandıqca odlanan ocaqdı,*
*Daddıqca dadlanan arzudu.*
*Bir bahar leysanıdı,*
*21 Azərin qanıdı,*
*Cavad xanın qətl yeridi,*
*Sabirin "Fəxriyyə" şeiridi,*
*Dağları dumanda itən –*
*Vətən... Vətən...* [19]

Nüsrət Kəsəmənli, Səyavuş Sərxanlı, Vaqif Cəbrayılzadə, Vaqif Bəhmənli, Ağamalı Sadiq, Adil Mirseyid poeziyasının dili isə fərqli semantik üslubi səciyyələrlə əlamətdardır. Vaqif Cəbrayılzadənin meydana qoyduğu poetik axtarışlar heç də identik görünmür. Vaqif Cəbrayılzadənin (indi Vaqif Bayatlı Ödər) "Ana su" şeirində dilin ritmik düzülüşü birnəfəsə mahiyyət daşıyır. Şair "*Ana yanında ölməkdi //dünyanın ən gözəl ölümü. //Ölüm də qorxulu gəlməz adama //qara torpaqlar altına getmək də //ana yanında",* – ekspozisiyasından sonra şeirin poetik bitkinliyini ifadəedən bədii mətni toxuyur:

*Bu çayı görüncə*
*ölüm günüm qədər əziz gəldi mənə bu gün.*
*Heç kimi istəmirəm,*
*bu güngözümdən iki damla yaşı*

---

[18] Həbibbəyli, İ. Ədəbi-tarixi yaddaş və müasirlik / İ.Həbibbəyli. – Bakı: Nurlan, – 2007, -s. 377.
[19] Rüstəmxanlı, S. Qan yaddaşı / S.Rüstəmxanlı. – Bakı: Yazıçı, – 1987. – s. 17.

*silirmiş kimi,anam qapasın gözlərimin işığını.*
*Dünyanın ən gözəl yuxusunu,*
*bir daha ayılmadan, sənin qoynunda yatmağım gəldi,*
*Yenisey Ana su.*[20]

Nazim Hikmət poetik ənənəsinə söykənmək baxımından ən önəmli yerlərdən birini tutan Adil Mirseyidin poeziyasında şairin daxildə batan səsinin poetik mətndə canlanması problemi ən müxtəlif versiyalarda üzə çıxır. Poetik mətndəki güc və enerjinin əslində təbiətdən gəlməsi, yaxud ən azı təbiətə bənzədilməsi XX əsr türk şeirinin, xüsusən, Nazim Hikmət poeziyasının təsiri sayıla bilər.

60-80-ci illərdə Azərbaycan şeirində dil-üslub əlvanlığı bədii təsvir imkanlarını genişləndirdiyi kimi, ifadəlilik və emosionallıq keyfiyyətlərini də artırmış olur. Bu, müəyyən mənada fərdi ustalıq səviyyəsindən də asılı olur. Ancaq poetik təhkiyənin substantivləşməsi, estetik-bədii qavrayışın əşyalaşması dilin çevikliyini də artırmış olur. Bir çox poetik mətnlərdə təkrar sözlərdən, təkrirlərdən istifadə imkanlarının genişlənməsi detalların təsvirinə, vəziyyət-təfərrüatların görümlülüyünü şərtləndirir.

Bu fəslin 2-ci paraqrafı **"Nazim Hikmətə həsr edilən şeirlərdə ənənənin saxlanılması"** adlanır. Burada Azərbaycan şairlərinin Nazim Hikmətə həsr edilmiş şeirləri tədqiqata cəlb edilir. Böyük türk şairi Nazim Hikmət 1920-ci illərdən Azərbaycan ədəbi mühiti ilə iç-içə olmuş, Bakıda müxtəlif mətbuat orqanlarında şeirləri və kitabları nəşr edilmişdir. İlk kitabının nəşr edilməsi və özünün Bakıya gəlməsi, bir neçə gün burada qalması onu Azərbaycan ədəbi prosesinə bağlamışdır. Bu bağlılıq Türkiyədən həbsxanadan çıxdıqdan və Sovetlər İttifaqına gəlməsindən sonra intensiv xarakter almışdır. Nazim Hikmət haqqında kitab yazan Radi Fiş şairin şəxsi taleyinin də Azərbaycanla bağlılığını önə çəkərək yazır: *"Nazim Hikmətin*

---

[20] Cəbrayılzadə, V. Ölənəcən sevmək azdır / V.Cəbrayılzadə. – Bakı: Yazıçı, – 1990. – 124 s.

*şəxsi taleyi də Azərbaycana qırılmaz tellərlə bağlı idi. Hələ o vaxt Nazim gənc şairlər Süleyman Rüstəmlə, Mikayıl Rəfili ilə çiyin-çiyinə verib, iyirminci illərin şablon, riyakar, köhnəlmiş, ənənə çərçivəsindən çıxa bilməyən qüvvələrinə qarşı birgə mübarizə aparmış...*

*Nazim Hikmət tez-tez Bakıda olurdu, Səməd Vurğunla, Rəsul Rzayla, Mehdi Hüseynlə, İmrab Qasımovla dostluq edirdi. İclaslarda, bədii mübahisələrdə, görüşlərdə iştirak edirdi"*[21]. Azərbaycan şairləri də hələ 20-30-cu illərdə şairə bir çox şeirlər həsr etmişdir. Əli Nazimin "Qara dənizi keçərkən" (1927), Səməd Vurğunun "Hərəkət" (1929) şeirlərinin yazılması şairin Azərbaycan ədəbi mühitinə təsiri və onun bu mühitdə yeni bir yol müəyyənləşdirdiyini göstərirdi. "Hərəkət" şeirində S.Vurğun Nazim Hikmət yaradıcılığında ən yaxşı ifadə olunan dövrün, zamanın dinamikasını tutmağa çalışır və özünün də poetik platformasını bir daha elan edir: "*Eşit, ey! //Aradığım şey //Artıq nə eşqdir, nə də hicran //Bu hiss, bu həyəcan //Qəlbimdən gəlmədi, fikrimdən doğdu: //Hərəkət! //Hərəkət! //Bu gün varlığımda dəmirdən möhkəm, //Tükənməz qoca bir qüvvə var desəm.*[22]

Nazim Hikmətə yazılan şeirlərin əksəriyyəti onun Moskvada yaşadıqdan sonra Bakıya gəlməsi və ölümündən sonra yazılan şeirlərdir. 1957-ci ildə Bakıya ilk gəlişində isə Bəxtiyar Vahabzadə "İlk kitabın" (1957), Mədinə Gülgün "Nazim Hikmətə", Fikrət Sadıq "Oğul həsrəti" (1958) şeirlərini həsr etmişdir. Süleyman Rüstəmin "Nazim Hikmət" gəmisinə yazdığı "Nazim yenə dənizdədir" (1965), Zeynal Xəlilin "Nazim yadıma düşdü" (1964), "Şairin ölümü" (ballada) (1963), Balaş Azəroğlunun "Mən yanmasam..." (1968), Məmməd Rahimin "Gəzir aləmi Nazim" (1973), Mirvarid Dilbazinin "Nazim Hikmət", Nigar Rəfibəylinin "Bəşər oğlu", Hökumə Billurinin "Hicran adasında mayakdı Nazim" və s. şeirlərində Nazim sevgisi, Nazim ağrısı və Nazim ayrılığı poetikləşdirilir. Bu şairlər

---

[21] Fiş, R. Nazim Hikmət / R.Fiş. – Bakı: Gənclik, – 1981. –s. 317-318.
[22] Vurğun, S. Seçilmiş əsərləri: [5 cilddə] / S.Vurğun. – Bakı: Şərq-Qərb, – c.1. – 2005. –s.75.

içərisində Nazim Hikmətə ən çox şeirlər həsr edən Rəsul Rza olmuşdur. Şair ona silsilə şeirlər həsr edərək dost itkisinin ən ağır üzüntüsünü dilə gətirmişdir. “Nazimlə görüş”, “Saman sarısı” (“Rənglər” silsiləsindən), “Gülxanə parkında bir ceviz ağacı var”, “Çinaraltı”, “Ulu şair”, “Üfüqdə göy gözlərin sarı həsrəti” və s. şeirlərində Nazim Hikmətin poetik obrazı sənətkarlıqla yaradılır.

Nazim Hikmətin ölümündən sonra gələn şeirə yeni nəsillərin, demək olar hamısı, Nazim Hikmət şəxsiyyətinə üz tutmuş, onun poetik dərketməsindən yararlanmış, üslubunu və etdiyi mücadiləni təqdir etmiş və çoxlu şeirlər həsr etmişlər. Nəriman Həsənzadənin “Nazim Hikmət”, “Sabah gələsiydi”, “Siz xoşbəxtsiniz”, “Nazim şeir deyirdi”, “Mən bilsəydim”, “Türk misrası”, Xəlil Rzanın “Günəşi içənlərin türküsü”, Məmməd Arazın “Nazimə Türkiyə sovqatı”, Hüseyn Kürdoğlunun “Türk oğlu türkəm”, Fikrət Qocanın “Nazim Hikmətə”, “Qiyamət nə gözəl şeydi, ölənlər diriləcək”, Vilayət Rüstəmzadənin “Dəli həsrət”, Vaqif Nəsibin “Qərib adam”, “Nazim Hikmətin son zümzüməsi”, Vaqif Səmədoğlunun “Nazim Hikmətə”, “Divin nağılı”, Məmməd Aslanın “Nazim yanğısı”, Azər Abdullanın “Oxunası gözəl-gözəl mahnılar”, Abbas Abdullanın “Nazimin heykəli”, “Puşkin şeir bayramından”, “Qürbətli dünya”, “Nekroloq”, Arif Abdullazadənin “Bursada”, Nurəngiz Günün “Vətən, məslək, düşüncələr”, “Bu axşam”, İsa İsmayılzadənin “Nazim Hikmət” gəmisi”, Ələkbər Salahzadənin “Nazim Hikmət”, Tofiq Məliklinin “Nazim Hikmət” Çingiz Əlioğlunun “Salam, Nazim baba”, Dilsuzun “Qar yağır”, Ramiz Rövşənin “Dərdimi danışdım suya” və s. şeirlərində poetik ənənə davam etdirilir. Şairin ölümü dostu R.Rzanı o qədər sarıtmışdı ki, bu möhnətə dözə bilməyəcəyini dilə gətirir:

*Ancaq Nazim öldü demə!*
*Xatırla Səməndər quşunun*
*Sehrli lələk tükünü,*
*Bircə sətrimi oxu könüldən.*
*Görərsən sağlığında gördüyünü.*
*Yanında hazır olar Nazim.*
*Lakin nə deyim, nə yazım?!*

*Ağır oldu möhnətim.*
*Kim dözərdi mən çəkənə, kim!...*[23]

Yaradıcılığında Nazim Hikmət üslubuna və şeir texnikasına yiyələnən, dövrün modern şairlərindən biri Nurəngiz Gün "Vətən, məslək, düşüncələr", "Bu axşam" şeirlərini Nazim Hikmətə həsr etməklə ona olan sonsuz sevgisini ifadə edir. *"Vətən, məslək, düşüncələr" şeirində N.Hikmətin "Düşünmək! //Nə müqəddəs bir iş!//Nə fəlakətdir! Nə bəxtiyarlıq"* misralarını epiqraf gətirərərək onu "ustad" adlandırır. Şair bu şeirində N.Hikmətə "Nazim baba",-deyə müraciət edir və onun vətəndən ayrı düşməsinin nədənlərini axtarmağa çalışır:

*Toxta Nazim baba,*
*Vətən sənin taleyində, baxtında,*
*Vətən sənin infarktında, saçlarının ağında-*
*Vətən sənin bütün nağıllarında,*
*Sən vətənin...dəmir barmağlığında!!!*[24] [121, s. 48]

Nazim Hikmətə həsr olunmuş şeirlərin demək olar, hamısının sərbəst şeir formasında yazılması şairin poetik ənənəsinin birbaşa davamı kimi səslənir. Hətta S.Vurğun, S.Rüstəm, M.Rahim, M.Dilbazi, Z.Xəlil kimi milli ənənəçilər də ona həsr etdikləri şeirlərini ya sərbəstdə yazmış, ya da qarışıq formada qələmə almışlar. Bu isə onu göstərir ki, 60-80-ci illərdə həm sərbəst şeir, həm də Nazim Hikmət poetik ənənəsi ədəbi prosesdə dominant rol oynamışdır. M.Dilbazi sərbəst formada yazdığı "Nazim Hikmət" şeirində şairi "şeirin mavi gözlü divi" adlandırır və sənət mülkündə içi sevinc və kədərlə dolu "bir evi" olduğunu bildirir.

---

[23] Rza, R. Seçilmiş əsərləri: [5 cilddə] / R.Rza. – Bakı: Öndər, – c.1. – 2005. –s. 98.
[24] Nurəngiz G. Seçilmiş əsərlər. (Şeirlər və poemalar). I cild. –Bakı,: -Renessans-A. 2019. s.48

XX əsrin 80-ci illərində ədəbiyyata gələn gənc şairlərin yaradıcılığında da Nazim Hikmət ənənəsi davam etdirilir, həm də şairə sonsuz sevgi poetik şəkildə ifadə edilirdi.

**“Güney Azərbaycan poeziyasında Nazim Hikmət ənənələri”** adlı III paraqrafda Nazim Hikmət poetik ənənəsinin Cənubi Azərbaycan ədəbiyyatındakı mövqeyi araşdırılır. Azərbaycan şairlərinin Cənub həsrətilə yazdığı şeirlərin böyük bir qismi sərbəst şeir formasında yazılmışdı ki, bu da fərqli assosiasiyalar yaradırdı. 60-cı illərdən başlayaraq Rəsul Rza, Məmməd Araz, Nəriman Həsənzadə, Xəlil Rza, Ələkbər Salahzadə, İsa İsmayılzadə, Söhrab Tahir kimi şairlərin sərbəst şeirdə özlərinin Cənub həsrətini ifadə etmələri Cənubda yazılan şeirlərin formasına da təsirsiz qalmadı. 60-cı illərdən sonra Azərbaycan şeirinin Cənub poeziyası ilə mövzu, problematika cəhətdən təsiri onun formasına da öz təsirini göstərmişdir. Azərbaycan şeirinin üslub zənginliyi, ritm və intonasiya dəyişikliyi Güney poeziyasında da hiss olunur. Bunu nəzərdə tutan cənubşünas alim Pərvanə Məmmədli yazır: *“...Güney şeirinin yeni istiqamətdə formalaşmasında S.Vurğun, R.Rza, B.Vahabzadə, M.Araz yaradıcılığının xüsusi yeri olduğu kimi, çağdaş türk şeirinin də mövqeyi hiss olunur, özəlliklə də Nazim Hikmət şeirinin intonasiyası dərhal duyulur”.*[25]

M.Araz, N.Həsənzadə, S.Tahir, Ə.Salahzadə, S.Rüstəmxanlı, İ.İsmayılzadə, Ə.Tudə şeirlərində də sərbəst şəkildə Cənub həsrətinin poetik xəritəsi çəkilirdi. Şimali Azərbaycan ədəbiyyatında yaranan bu cür şeirlər həm mövzu, həm də forma baxımından Cənub şeirinə daxil olurdu. Sərbəst şeir ilk olaraq Tağı Rüfət, Məmmədhüseyn Şəhriyar, Həbib Sahir, Səhənd yaradıcılığında özünü göstərir. Həbib Sahir (1903-1988) sərbəstdə yazdığı şeirlərlə Cənub ədəbiyyatına yeni ruh gətirmişdir. Zaman baxımından Həbib Sahirin sərbəst şeirlərinin 60-cı illərdən sonra yazıldığını görmək olar. Onun “Axşam

---

[25] Məmmədli, P.Çağdaş Güney Azərbaycan ədəbiyyatının təmsilçiləri: ədəbi şəxsiyyətlər, təmayüllər və perspektivlər//Güney Azərbaycan ədəbiyyatı antologiyası. Bakı, TEAS Press, 2015, s. 15.

çağıdır", "Zamanın sirri", "Xəzanlar", "Uğuldayır dəli yellər", "Yurd mahnısı", "Tehranın yay gecələrində", "İşçi" və s. şeirləri ilə sərbəst şeirin ilk və yeni formalarını yaratmış olur. "Yurd mahnısı" şeirində R.Rza sərbəstinin izlərini axtarmaq olar:

*Başdan-başa Azərbaycan,*
*Bağı-cənandı.*
*Mavi Xəzərin pərdəsi.*
*Min rəngə çalandı.*
*El ordusudur, qalası*
*Qarlı Savalandır.* [26]

Həbib Sahirin sərbəst şeirlərində Azərbaycan, ana vətən, təbiət intonasiyası üstünlük təşkil edir. Cənubi Azərbaycanda sərbəst şeirin onun adı ilə bağlanmasında mövzu və problematikanın da rolu vardır.

Həbib Sahirdən fərqli olaraq, Səhənd sərbəst şeirdə siyasi və ictimai düşüncələrini daha yaxşı ifadə edir. Bunu nəzərdə tutan tədqiqatçı Fikrət Əhmədov (Süleymanoğlu) yazır: *"...Səhənd təkcə məzmuna yox, həm də indi dillər əzbəri olan modern şeirləri ilə formaya da yenilik gətirmiş, Cənubda siyasi şeirin üfüqlərinin genişləndirilməsində aparıcı simalardan biri olmuşdur".*[27] Səhənd mahiyyət etibarilə milli kökə, ənənəyə bağlı şair olmuş, formada olduğu kimi, məzmunda da bu milli ruhu qoruyub saxlamağa çalışmışdır.

Çağdaş dövrdə Güney Azərbaycanda Nazim Hikmət ənənəsi Hümmət Şahbazi, Hadi Qaraçay, Əli Hüseynzadə (Daşqın), Kiyan Xiyav, Ruqiyyə Kəbiri, Nadir Mənzuri, Nadir Əzhəri, Bəhruz İmani, Murtuza Məcidlər, Məhəmməd Rza Ləvai, Toğrul Atabəy, Heydər Bayat, Sayman Aruz, Leyla Kəhali, Aydın Araz, İsa Zeyni, Solmaz Məmmədrzayi, Ruqiyyə Səfəri və başqa şairlərin yaradıcılığında sərbəst şeir ənənəsi uğurla davam etdirilir.

---

[26] Həbib, S. Seçilmiş əsərləri. –Bakı, -Lider, 2005, -s. 77.
[27] Süleymanoğlu, F. Səhənd (mühiti, həyatı və yaradıcılığı)/ F.Süleymanoğlu. Bakı: Nurlar, – 2017, -s. 78-79.

3-cü fəsilə aid əldə olunan əsas müddəalar göstərilən məqalələrdə əksini tapmışdır.[28] Tədqiqatın **"Nəticə"** hissəsində 1960-1980-ci illər Azərbaycan şerində Nazim Hikmət ənənələri ilə bağlı əldə edilmiş elmi qənaətlər ümumiləşdirilir və nəticələr sistemləşdirilir.

---

[28] İslamlı, A. 1960-80-ci illər Azərbaycan poeziyasında poetik üslubun bəzi xüsusiyyətləri // Sumqayıt Dövlət Universiteti. Müasir dilçiliyin aktual problemləri beynəlxalq elmi konfransın materialları. Sumqayıt: – 2016, - s.229-230;
İslamlı, A. 60-80-ci illər Azərbaycan poeziyasında Nazim Hikmət // Filologiya məsələləri. Bakı: - 2013, - s.338-342;
Исламлы, А. Влияние поэзии Назима Хикмета на Азербайджанскую поэзию Филологические науки вопросы теории и практики. № 1 (31), Тамбов: - 2014, - с.83-86.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı məqalələrində əks olunmuşdur.**


1. İslamlı, A. 60-cı illər Azərbaycan poeziyası xüsusi mərhələ kimi //Filologiyanın aktual problemləri: Axtarışlar və perspektivlər. Respublika elmi konfransının materialları. Sumqayıt: - 2012, - s.106-109
2. İslamlı, A. Nazim Hikmət və Əli Kərim //Azərbaycan Respublikası Təhsil Nazirliyi Sumqayıt Dövlət Universiteti. Elmi xəbərlər. Sumqayıt: - 2012, - s.46-50
3. İslamlı, A. 80-ci yıllar Azerbaycan şiirlerinde dil-uslup poetikası ve Türk şiir geleneği // Kultur Evreni. Ankara:-2013, -s.25-31
4. İslamlı, A. Nazim Hikmətin 60-cı illər poeziyasına ritm və intonasiya baxımından təsiri //Doktorantların və gənc tədqiqatçıların XVII respublika elmi konfransının materialları. Bakı: - 2013, - s.300-301
5. İslamlı, A. Nazim Hikmət poeziyası və 60-80-ci illər Azərbaycan şeirində yeni poetik texnika – modernist təmayüllər. // "Dil və ədəbiyyat". Beynəlxalq elmi-nəzəri jurnal. Bakı: - 2013, - s.134-136
6. İslamlı, A. 60-80-ci illər Azərbaycan poeziyasında Nazim Hikmət // Filologiya məsələləri. Bakı: - 2013, - s.338-342
7. İslamlı, A. Nazim Hikmətin peyzaj lirikasının Azərbaycan poeziyasına təsiri Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları. Bakı: - 2013, - s.64-66
8. İslamlı, A. Vaqif Səmədoğlunun poeziyasında Nazim Hikmət ənənəsi // Azərbaycanşünaslığın aktual problemləri. V beynəlxalq elmi konfransın materialları. Bakı: - 2014, - s.315-317
9. İslamlı, A. Nazim Hikmət və Azərbaycan ədəbiyyatı // "Sivilizasiya" jurnalı. Bakı: - 2014, -s.72-76
10. İslamlı, A. 1960-1980-ci illər Azərbaycan poeziyasında Nazim Hikmət ənənəsi. (Ramiz Rövşənin yaradıcılığı əsasında) Elmi xəbərlər. Sumqayıt: -2014, - s.32-35

11. Исламлы, А. Влияние поэзии Назима Хикмета на Азербайджанскую поэзию // Филологические науки вопросы теории и практики. № 1 (31), Тамбов: - 2014, - с.83-86
12. İslamlı, A. Nazim Hikmət poeziyası və 60-80-ci illər Azərbaycan şeirində yeni poetik texnika // Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların II Beynəlxalq Elmi konfransı. Bakı: - 2014, - s.232-234
13. İslamlı, A. İki şeirin poetik yaddaşında Nazim Hikmət obrazı // Sumqayıt Dövlət Universiteti. Elmi xəbərlər. Sumqayıt: -2015, -s.17-20
14. İslamlı, A. 1960-80-ci illər Azərbaycan poeziyasında poetik üslubun bəzi xüsusiyyətləri // Sumqayıt Dövlət Universiteti. Müasir dilçiliyin aktual problemləri beynəlxalq elmi konfransın materialları. Sumqayıt: -2016, - s.229-230

Dissertasiyanın işinin müdafiəsi 31 may 2023-cü il tarixində saat 15⁰⁰ AMEA Nizami Gəncəvi adına adına Ədəbiyyat İnstitutu nəzdində fəaliyyət göstərən filologiya elmləri doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcələrini almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən ED-1.05 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Azərbaycan Respublikası, Bakı ş., H.Cavid prospekti 117., Akademiya şəhərciyi, Əsas korpus, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı

Dissertasiya işi ilə AMEA Nizami Gəncəvi adını Ədəbiyyat İnstitutunun Elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adını Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 20 aprel 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.10.2022

Kağız formatı: A5

Həcm: 37348

Tiraj: 100